# Prezident İlham ƏLİYEV:
# “İslahatlar bizim şüurlu seçimimizdir”

***Prezident İlham Əliyevin uğurlu inkişaf strategiyası nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik və maliyyə dayanıqlılığı daha da möhkəmlənib, iqtisadi inkişaf və təhlükəsizlik sahəsində dövlət siyasətinin prioritetləri və məqsədləri gerçəkləşib. Cari ilin ötən aylarında bütün makroiqtisadi göstəricilər üzrə artımın qeydə alınması da məhz bunun məntiqi nəticəsidir. Dövlətimizin başçısı Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə söylədiyi nitqində bu məsələ barədə də fikirlərini ifadə edib.***

> *Mən gələcəkdə iqtisadi sahədə heç bir problem görmürəm. Manatın məzənnəsi artıq üç ildir ki, sabitdir. Əminəm ki, belə davam edəcək. Valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız ümumi daxili məhsuldan çoxdur. Xarici borcumuz azalır, yenə də azaldacağıq.*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

Ölkə rəhbəri çıxışında Azərbaycanın xarici dövlət borcu haqqında bildirib ki, hazırda respublikamızın inkişafı elə bir səviyyədədir ki, xaricdən kredit almağa ehtiyac qalmayıb: “Biz özümüz kredit veririk. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edir. Bu göstəriciyə görə, biz dünyada doqquzuncu yerdəyik”.

Yeri gəlmişkən, xatırladaq ki, bu məsələyə daim önəm verən Prezident İlham Əliyev ötən il avqustun 24-də “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Həmin strategiyanın əsas məqsədi qlobal iqtisadiyyatda, habelə maliyyə bazarında baş verən proseslər fonunda ölkənin maliyyə dayanıqlılığının daha da gücləndirilməsinə, dövlət borcalmalarında səmərəliliyin artırılmasına, qarşıda duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla bu sahədə risklərin səmərəli idarə edilməsinə, eyni zamanda, nəzarət mexanizminin təkmilləşdirilməsinə nail olmaqdır.

Strategiyada əsas məqsəd kimi həm ortamüddətli, həm də uzunmüddətli dövrdə ölkə iqtisadiyyatının ehtiyaclarını nəzərə almaqla dövlət borcunun dayanıqlığını təmin etmək planlaşdırılıb. Bunun üçün 2018–2025-ci illər üzrə ümumi dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin 30 faizdən çox olmaması və 2025-ci ilədək 20 faizdən aşağı salınması hədəfi qərarlaşdırılıb.

Sənəddə yerli maliyyə bazarlarının inkişafının dəstəklənməsi də nəzərdə tutulub. Bu istiqamətdə Mərkəzi Bank və Maliyyə Bazarlarına Nəzarət Palatası ilə birlikdə təkrar bazarın formalaşdırılması üçün zəruri tədbirlər həyata keçiriləcək, emissiya prospektlərinin bazar tələbləri və investorların maraqları nəzərə alınmaqla hazırlanması və reallaşdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Xatırladaq ki, həyata keçirilən tədbirlərin nəticəsidir ki, cari il yanvarın 1-nə Azərbaycan Respublikasının xarici dövlət borcu 8 milyard 927,1 milyon ABŞ dolları (15 milyard 176 milyon manat), xarici dövlət borcunun ümumi daxili məhsula (ÜDM) olan nisbəti 19 faiz (2018-ci il üçün hesablanmış 79 milyard 797,30 milyon manat ÜDM-ə nisbətdə) təşkil edib. Hazırda isə həmin göstərici 17 faiz səviyyəsinə enib.

Beləliklə, son 1 ildə xarici borc 680 milyon dollar, ÜDM-ə nisbətdə isə 3,8 faiz-bənd azalıb. Təbii ki, bu, müsbət tensensiyadır və hökumətin xarici borclarla bağlı yeni strategiyasına uyğundur.

Prezident İlham Əliyev nitqində ölkəmizin indiki maliyyə vəziyyətinə də toxunub: “Manatın məzənnəsi artıq üç ildir ki, sabitdir. Əminəm ki, belə davam edəcək. Valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız ümumi daxili məhsuldan artıq çoxdur”.

Şübhəsiz ki, Azərbaycan iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi istiqamətində həyata keçirilən islahatlar, əldə olunan nailiyyətlər ölkəmizin maliyyə dayanıqlılığını artırır, bu, beynəlxalq müstəvidə də öz layiqli qiymətini alır. İslahatların doğurduğu pozitiv trendlər və inkişaf perspektivləri Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, habelə digər aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən dərc olunan hesabatlarda öz əksini tapır.

Sirr deyil ki, son illərdə əldə edilən bütün sosial-iqtisadi uğurlar ölkə iqtisadiyyatının dinamik inkişafı, islahatların ardıcıl xarakter daşıması ilə bağlı olub. Hazırda ölkə iqtisadiyyatının dayanıqlılığının şaxələndirilməsi və rəqabət qabiliyyətinin təmin edilməsi qarşıya iqtisadi islahatlar üzrə əsas vəzifə kimi qoyulub. Bu məqsədlə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, institusional islahatların aparılması, dövlət tərəfindən sahibkarlara hərtərəfli dəstək verilməsi istiqamətlərində bir sıra mühüm qərarlar qəbul edilib. Bütün bunların sayəsində Azərbaycan hazırda dünyanın ən sürətlə və dayanıqlı inkişaf edən ölkəsinə çevrilib.

Prezident İlham Əliyev nitqində, həmçinin deyib: “Bizim büdcə daxilolmalarımız artır. Eyni zamanda, valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız rekord həddə çatıb – 49 milyard dollar səviyyəsindədir. Bu, bizim böyük sərvətimizdir, böyük uğurumuzdur”.

Xatırladaq ki, cari ilin altı ayında valyuta ehtiyatları 4 milyard dollar artıb. Bu vəsaitdən qənaətlə istifadə edilir. Məhz buna görə, hətta böhranlı illərdə, neftin qiyməti aşağı olan vaxtlarda belə Azərbaycanın valyuta resursları qorunaraq artırılıb. Məqsəd isə valyuta ehtiyatlarını ildən-ilə artırmaq və bununla paralel xarici dövlət borcunu kifayət qədər azaltmaq olub.

Azərbaycanın strateji valyuta ehtiyatlarından bəs edərkən, son 5 ilin statistik göstəricilərinə də diqqət yetirməyi zəruri sayırıq. Belə ki, ölkəmizin strateji valyuta ehtiyatları 2015-ci ildə 37 milyard, 2016-cı ildə 39 milyard, 2017-ci ildə 41 milyard, 2018-ci ildə 45 milyard, 2019-cu ilin birinci yarısında isə 49 milyard dollar olub.

Dövlətimizin başçısı nitqində sənaye və aqrar sektorların dinamik inkişafı barədə də fikirlərini diqqətə çatdırıb: “Sənaye artır. Bu il qeyri-neft sənayemiz 15 faiz, kənd təsərrüfatı 7 faiz artıbdır”. Bu fikirlə bağlı deyə bilərik ki, Azərbaycan Prezidentinin neft və qazdan asılılığın azaldılması məqsədilə son illərdə sənaye parkları və məhəllələrinin, aqroparkların, iri fermer təsərrüfatlarının yaradılması, müasir texnologiyaların və elektron kənd təsərrüfatı sisteminin tətbiqi, özünüməşğulluq proqramının icrası, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlb olunmaları kimi tapşırıqları ilə bağlı müsbət nəticələr əldə edilib.

Hazırda “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı”ına uyğun olaraq reallaşdırılan tədbirlərin nəticəsində ölkəmizdə ənənəvi sənaye sahələri getdikcə genişlənir, istehsal həcmi artır, yeni sənaye müəssisələri işə salınır, sənaye məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlir. Bütün bunlar isə yeni iş yerlərinin açılmasına, işsizliyin səviyyəsinin aşağı düşməsinə müsbət təsir göstərir.

Prezident İlham Əliyev nitqində beynəlxalq təşkilatlar, maliyyə qurumları tərəfindən Azərbaycanda sosial-iqtisadi islahatların, xalq–iqtidar birliyinin yüksək dəyərləndirildiyini də diqqətə çatdırıb: “Davos Ümumdünya Forumu bizi çox yüksək yerlərə layiq görür, o cümlədən islahatların aparılması istiqamətində. İslahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə biz dünyada birinci onluqdayıq. Özü də bunu biz yox, Davos deyir. Dünya Bankı nə deyir? Deyir ki, Azərbaycan 20 ən islahatçı ölkə sırasındadır”.

Dövlətimizin başçısı islahatlardan danışarkən, maraqlı bir məqama da toxunub. Bildirib ki, islahatlar bizim şüurlu seçimimizdir: “Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri gedir. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır. Baxın, iqtisadi islahatlar nəticəsində təkcə bu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplamışıq. Bunları sosial sahəyə yönəldirik. Amma bu, hələ islahatların növbəti mərhələsinin birinci addımlarıdır. Bundan sonra da daha böyük addımlar atılacaqdır. Bu, imkan verir ki, sosial sahəyə böyük diqqət yetirək. Bundan 4 milyon 200 mindən çox insan faydalanıb. Bu il minimum əməkhaqqı iki dəfə, minimum pensiya 70 faiz, müavinətlər iki dəfə, tələbələrin təqaüdləri 50 faiz, köçkünlərə verilən təqaüd 50 faiz artırılıb. Nəyin hesabına? Bu, göydən düşən deyil, bunları islahatların hesabına əldə edirik, əldə də etməliyik”.

Dövlətimizin başçısı nitqində son 16 ildə kənardan edilən hər hansı bir təzyiqə Azərbaycanın çox böyük məharətlə və ləyaqətlə davam gətirə bildiyini xatırladıb. Səbəbini isə xalq-iqtidar birliyi və sabitliklə əlaqələndirib. Bu faktın Davos İqtisadi Forumunun hesabatında da təsdiqini tapdığını vurğulayıb. Dövlət başçısı həmin sənəddə hakimiyyətin dəyişikliklərə, islahatlara meyli və əhali tərəfindən rəhbərliyə olan dəstək sahəsində Azərbaycanın dünya miqyasında birinci onluğa daxil edildiyini göstərib.

Ölkə rəhbəri çıxışında Azərbaycanın hazırda ümumi inkişafının müsbət olduğunu və gələcəkdə də siyasi, sosial-iqtisadi sahələrdə mühüm uğurlar əldə ediləcəyinə əminliyini ifadə edib.

***Vaqif BAYRAMOV,***
***Elşən AĞALAR (foto)***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2019.- 1 dekabr. S. 4.